**Azərbaycan Respublikası adından**
**Q Ə T N A M Ə**

**İş № 2-1(103)-325/2010**

**30 iyul 2010-cu il** **Bakı şəhəri**

Bakı Apellyasiya Məhkəməsinin inzibati - iqtisadi kollegiyası;
Hakimlər Abbasov Mirzəli Əbdüləli oğlunun sədrliyi,
Seyidova Səriyyə Seyid qızı və Hüseynov Sərvət Qeybalı oğlundan ibarət tərkibdə,
Məhkəmə iclas katibi Hüseynov Zaur Nazim oğlu,
iddiaçı "Astara Enerji Qovşağı" MMC – onun nümayəndəsi Mehdiyev Gündüz İsmayıl oğlu,
iddiaçı "Mingəçevir RET" MMC – onun nümayəndəsi Məmmədov Mahir Ədəhən oğlu,
cavabdeh Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İri Sığortaedənlərlə iş üzrə Departamenti – onun nümayəndəsi İsgəndərov Lətif Hüseyn oğlu,
3-cü şəxs "Azərenerji" ASC – onun nümayəndəsi Allahquliyev Sərvər Seyfəddin oğlunun iştirakları ilə,
1 saylı Bakı yerli İqtisad Məhkəməsinin 2-(81)-1319/2009 saylı 16 dekabr 2010-cu il tarixli qətnaməsindən iş üzrə cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamenti tərəfindən verilmiş apellyasiya şikayətinə əsasən mülki işə məhkəmənin binasında açıq məhkəmə iclasında baxaraq,

m ü ə y y ə n e t d i :

İş üzrə iddiaçı "Astara Enerji Qovşağı" MMC cavabdehlər Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İri Sığortaedənlərlə iş üzrə Departamentinə və "Lənkəran Regional Enerji Təchizatı" MMC-yə qarşı "Azərenerji" ASC üçüncü şəxs qismində işə cəlb edilməklə iddia ərizəsi ilə 1 saylı Bakı yerli İqtisad Məhkəməsinə müraciət edərək "Astara EQ" MMC-nin DSMF-yə olan 672412,17 manat məbləğində borcunun ümidsiz borc hesab olunaraq silinməsi və ya həmin borcların ödənişinə Azərbaycan Respublikası Nazirlər

Kabineti tərəfindən müvafiq qərarlar qəbul edilənədək möhlət verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Eyni zamanda iddiaçı “Mingəçevir Regional Enerji Təchizatı” MMC cavabdeh Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İri Sığortaedənlərlə iş üzrə Departamentinə qarşı “Azərenerji” ASC üçüncü şəxs qismində işə cəlb edilməklə iddia ərizəsi ilə 1 saylı Bakı yerli İqtisad Məhkəməsinə müraciət edərək “Mingəçevir RET” MMC-nin DSMF-yə 01.03.2006-cı il tarixə olan 1.003.727 manat məbləğində borcun ümidsiz borc hesab olunaraq qarşılıqlı əvəzləşdirmə yolu ilə silinməsi və ya həmin borcun ödənişinə Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən bu məsələ üzrə müvafiq qərar qəbul edilənədək möhlət verilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

Sonradan iddiaçı “Astara EQ” MMC iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamenti tərəfindən “Astara EQ” MMC-yə hesablanmış 672.412,17 manat borc öhdəliyinə xitam verərək, həmin məbləğin cəmiyyətin şəxsi hesabından silinməsinin cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamentinə həvalə edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

İddiaçı “Mingəçevir RET” MMC də iddia tələbinin dəqiqləşdirilməsi barədə ərizə ilə məhkəməyə müraciət edərək DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamenti tərəfindən “Mingəçevir RET” MMC-yə hesablanmış 1.003.727 manat borc öhdəliyinə xitam verərək, həmin məbləğin cəmiyyətin şəxsi hesabından silinməsinin cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamentinə həvalə edilməsi barədə qətnamə qəbul edilməsini xahiş etmişdir.

İddia ərizələri məhkəmənin icraatına qəbul olunduqdan və iş üzrə müəyyən prosessual hərəkətlər edildikdən sonra 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin 2-(81)-1319/2009 saylı 10 dekabr 2009-cu il tarixli qərardadı ilə məhkəmənin icraatında olan iddiaçılar “Astara EQ” MMC-nin və “Mingəçevir RET” MMC-nin cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamentinə qarşı “Azərenerji” ASC üçüncü şəxs qismində işə cəlb edilməklə cavabdeh tərəfindən “Astara EQ” MMC-yə hesablanmış 672.412,17 manat, “Mingəçevir RET” MMC-yə hesablanmış 1.003.727 manat borc öhdəliklərinə xitam verilərək, həmin məbləğlərin MMC-lərin şəxsi hesablarından silinməsinin cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamentinə həvalə edilməsi barədə iddia ərizələri üzrə eyni tələblə bağlı 2-(81)-1319/2009 saylı, 2-(81)-1563/2009 saylı işlər bir icraatda 2-(81)-1319/2009 saylı iş adı altında birləşdirilmişdir.

Daha sonra 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin iş üzrə qəbul etdiyi 2-(81)-1319/2009 saylı 16 dekabr 2009-cu il tarixli qətnaməsi ilə (sədrlik edən hakim M.Bayramov) iddiaçılar “Astara EQ” MMC-nin və “Mingəçevir RET” MMC-nin iddia tələbləri təmin edilərək cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamenti tərəfindən “Astara EQ” MMC-yə hesablanmış 672.412,17 manat, “Mingəçevir RET” MMC-yə hesablanmış 1.003.727 manat borc öhdəliyinə xitam verilərək, həmin məbləğlərin MMC-lərin şəxsi hesablarından silinməsinin cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamentinə həvalə edilməsi, iddiaçı “Astara EQ” MMC-nin ödədiyi 20 manat dövlət rüsumu və iddiaçı

“Mingəçevir RET” MMC-nin ödədiyi 20 manat dövlət rüsumunun iddiaçılara aid edilməsi qət edilmişdir.

Qətnamədən narazı qalan cavabdeh DSMF-nin İri Sığortaedənlərlə iş üzrə Departamenti apellyasiya şikayəti verərək 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 16 dekabr 2009-cu il tarixli qətnaməsinin ləğv edilməsi, iddiaçılar “Astara EQ” MMC-nin və “Mingəçevir RET” MMC-nin iddia ərizələrinin baxılmamış saxlanılması barədə qərardad qəbul edilməsini xahiş etmişdir. Cavabdeh apellyasiya şikayətini onunla əsaslandırmışdır ki, birinci instansiya məhkəməsi qətnamə qəbul edərkən maddi və prosessual hüquq normalarını pozmuş və bilavasitə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin hüquq və vəzifələrinə dair məsələni həll etmişdir. Belə ki, “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” səhmdar cəmiyyətlərini idarə etmək hüququna dair müqavilələrin ləğvinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 05.12.2005-ci il tarixli, 1128 saylı sərəncamının 2-ci bəndi ilə “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” səhmdar cəmiyyətləri həmin sərəncamın 1.1-ci bəndində göstərilən müqavilələr ləğv edildiyi andan “Azərenerji” ASC-nin tərkibinə verilmişdir. Ümumiyyətlə, “Azərenerji” Səhmdar Cəmiyyətinin rayon və şəhər paylayıcı elektrik şəbəkələrinin Azərbaycan Respublikası Prezidentinin və AR Nazirlər Kabinetinin müvafiq sərəncam və qərarlarına əsasən idarəetməyə verilməsi və idarə etmək hüququna dair müqavilələrin ləğvi ilə əlaqədar olaraq, paylayıcı elektrik şəbəkələri yenidən “Azərenerji” ASC-nin tabeçiliyinə verilmişdir. Sonradan müvafiq regional enerji təchizat MMC-lərin tərkibinə daxil edilmişdir. Daha doğrusu, elektrik enerjisinin istehsalı və istehlakı sahəsində idarə etməni həyata keçirən orqan kimi “Azərenerji” Səhmdar Cəmiyyəti tərəfindən ləğv edilən strukturların aktivlərinin və passivlərinin balans üzrə inventarizasiyası aparılmış və müvafiq təhvil – təslim aktı ilə digər strukturların balansına verilmişdir. “Azərenerji” ASC-nin 16.04.2007-ci il tarixli 05-VP/614 saylı məktubuna əsasən, ləğv olunmuş MMC-lərin “Azərenerji” ASC tərəfindən əmlaklarının və balansın digər maddələri üzrə qalıqlarının, o cümlədən DSMF-yə olan borclarının yenidən təşkil olunmuş MMC-lər üzrə aparılmış bölgüsü MMC-lərin şəxsi hesablarına işlənilmişdir. Vaxtı ilə paylayıcı elektrik şəbəkələrini idarə etməyə götürmüş MMC-lərin aktivləri və passivləri üzrə balans qalıqları iddiaçıların balansına verilməsi onların iddia ərizələrində də etiraf olunmuşdur. Bununla belə həmin borcların ödənilməsi (silinməsi) qaydalarını müəyyənləşdirmək Azərbaycan Respublikası Nazirlər Kabinetinin səlahiyyətinə aiddir. İddiaçı tərəfindən birinci instansiya məhkəməsinə təqdim olunmuş 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin 19.06.2006-cı il tarixli 34/6-350/3-393 saylı qərardadı ilə iddiaçı Dövlət Sosial Müdafiə Fondunun Bakı şəhəri üzrə hüquqi şəxslərlə iş Departamentinin cavabdeh “Dövlət Enerjinəzarət” İdarəsinə qarşı məcburi dövlət sosial sığorta haqqları üzrə borcun tutulmasına dair iddia tələbi iddia ərizəsində tələb edilən borc məbləğinin ödənilməsinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərarına əsasən möhlət verilməsi nəzərə alınaraq, baxılmamış saxlanılmışdır. Azərbaycan Respublikası MPM-nin 259.0.1-ci maddəsinə əsasən, məhkəməyə müraciət etmiş iddiaçı işin qabaqcadan məhkəmədən kənar (pretenziya) həll edilməsi barəsində müəyyən kateqoriyadan

olan işlər üçün qanunla müəyyən edilmiş, yaxud tərəflər arasında müqavilə ilə nəzərdə tutulmuş qaydaya əməl etməmişsə və bu qaydanı tətbiq etmək imkanı itirilməmişsə məhkəmə ərizəni baxılmamış saxlayır.

Məhkəmə iclasında cavabdehin nümayəndəsi L.İsgəndərov apellyasiya şikayətinin dəlillərinə uyğun izahat verərək 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 16 dekabr 2009-cu il tarixli qətnaməsinin ləğv edilməsi və iddia ərizələrinin baxılmamış saxlanılması barədə qərardad qəbul edilməsini xahiş etdi.

Məhkəmə iclasında iddiaçıların nümayəndələri G.Mehdiyev və M.Məmmədov hər biri ayrı-ayrılıqda izahatlarında apellyasiya şikayətinin dəlillərini əsassız hesab edərək 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin iş üzrə qəbul etdiyi 16 dekabr 2009-cu il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını, apellyasiya şikayətinin təmin olunmamasını xahiş etdilər.

Məhkəmə iclasında üçüncü şəxsin nümayəndəsi S.Allahquliyev izahatında apellyasiya şikayətinin dəlillərini əsassız hesab edərək göstərdi ki, cavabdeh tərəfindən iddiaçılara hesablanmış borc məbləğləri vaxtı ötmüş borclardır və buna görə də həmin borcların iddiaçıların şəxsi hesablarından silinməlidir. Odur ki, birinci instansiya məhkəməsinin iş üzrə qəbul etdiyi 16 dekabr 2009-cu il tarixli qətnaməsinin dəyişdirilmədən saxlanılmasını, apellyasiya şikayətinin təmin olunmamasını xahiş etdi.

Azərbaycan Respublikası Mülki Prosessual Məcəllənin 372.7-ci maddəsinə əsasən apellyasiya instansiya məhkəməsi şikayətin dəlillərindən asılı olmayaraq, məhkəmənin maddi və prosessual hüquq normalarına riayət etməsini yoxlayır.

Məhkəmə kollegiyası məruzəçi hakimin işin halları, birinci instansiya məhkəməsinin qətnaməsinin və apellyasiya şikayətinin məzmunu haqqında məruzəsini, tərəflərin nümayəndələrinin izahatlarını dinləyib, iş materiallarını tam və hərtərəfli araşdıraraq hesab edir ki, 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 16 dekabr 2009-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, apellyasiya şikayəti təmin olunmamalıdır.

Belə ki, iş materiallarından görünür ki, “Astara Elektrik Stansiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti hüquqi şəxs kimi 07 oktyabr 2005-ci il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran bölgə şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır. 08 fevral 2006-cı il tarixdə cəmiyyətin nizamnaməsində dəyişiklik edilmiş və cəmiyyətin adı “Astara Elektik Qovşağı” MMC olmuşdur.

Eyni zamanda iş materiallarından görünür ki, “Mingəçevir Regional Enerji Təchizat” Məhdud Məsuliyyətli Cəmiyyəti hüquqi şəxs kimi 13 yanvar 2006-cı il tarixdə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bərdə bölgə şöbəsi tərəfindən dövlət qeydiyyatına alınmışdır.

İş materiallarına əlavə edilmiş sənədlərlə müəyyən olunur ki, “Azərenerji” ASC 31.03.2001-ci il tarixinə qədər elektrik enerjisinin satışını cəmiyyətin yerli idarələri olan rayon və şəhər Paylayıcı Elektrik şəbəkələri vasitəsilə yerinə yetirmişdir. Yerli şəbəkələr “Azərenerji” ASC-nin struktur bölməsi kimi fəaliyyət göstərmiş və debitor-kreditorların uçotu “Azərenerji” ASC-nin balansında aparılmışdır.

Azərbaycan Respublikası Prezidentinin rayon və şəhər Paylayıcı Elektrik şəbəkələrinin fəaliyyətinin təkmilləşdirilməsi və idarəetməyə verilməsi haqqında 31 mart 2001-ci il tarixli 676 saylı sərəncamına əsasən tərkibinə müvafiq rayon və şəhər PEŞ-lərinin daxil olduğu “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lər yaradılmış və bu PEŞ-lər üzrə müəssisə və təşkilatlardan alınmalı debitor borc məbləğləri müvafiq təhvil-təslim aktı ilə yeni yaranmış “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lərin balansına verilmişdir.

Bundan sonra Azərbaycan Respublikası Prezidentinin 28.08.2002-ci il tarixli 1030 saylı sərəncamına müvafiq olaraq “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lərin idarəetməyə verilməsi məqsədilə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyinin 29.08.2002-ci il tarixli 59 saylı əmrinə əsasən yaradılmış komissiya tərəfindən “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lərin aktivlərinin və passivlərinin balans üzrə inventarizasiyası keçirilmiş və müvafiq təhvil-təslim aktı ilə onlar “Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları” ASC-nin təsis etdiyi “BAYVA Qərb-Enerji” və “BAYVA Cənub-Enerji” MMC-lərə təhvil verilmişdir.

Bununla əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.10.2002-ci il tarixli 158 saylı və 21.07.2003-cü il tarixli 91 saylı Qərarına və həmin qərara 10.12.2001-ci il tarixli 194 saylı Qərarla edilmiş dəyişikliklərə istinadən “Azərenerji” ASC və Dövlət Sosial Müdafiə Fondu arasında borcların ödənilməsinə möhlət verilməsi barədə 04.09.2003-cü il tarixli birgə Protokol imzalanmışdır.

Azərbaycan Respublikası Prezidentinin 05.12.2005-ci il tarixli 1128 saylı sərəncamına əsasən “BYGEA” ASC ilə “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lərin idarəetməyə verilməsi ilə bağlı müqavilələrin ləğv edilməsi nəticəsində PEŞ-lər yenidən “Azərenerji” ASC-nin tabeliyinə keçmiş və müvafiq regional enerji təchizat MMC-lərin tərkibinə daxil edilmişlər. Bu zaman idarəetmə dövründə Dövlət Sosial Müdafiə Fonduna olan borclar “Azərenerji” ASC tərəfindən müvafiq qaydada “RET” MMC-lər, o cümlədən “Mingəçevir RET” MMC və “Astara EQ” MMC və digər qurumlar arasında bölüşdürülmüş və “Azərenerji” ASC-nin 16 aprel 2007-ci il tarixli 05-VP/614 saylı məktubla müraciətinə əsasən borclar DSMF tərəfindən iddiaçıların və digər qurumların şəxsi hesablarına işlənmişdir.

Digər tərəfdən iş materiallarından görünür ki, məcburi dövlət sosial sığorta haqqları üzrə vaxtı keçmiş borc qalığı ilə bağlı “Azərenerji” ASC-nin 30 yanvar 2007-ci il tarixli 05 saylı sərəncamına əsasən “Lənkəran RET” MMC-nin DSMF-na olan borclarından 672412,17 manat vəsaitin “Astara Enerji Qovşağı” MMC-nin hesabına yazılmasına sərəncam verilmişdir.

Göründüyü kimi həmin borclar iddiaçılara hüquqi varislik əsasında keçməmiş, yalnız “Azərenerji” ASC-nin müraciəti əsasında onların şəxsi hesablarına işlənmişdir.

Azərbaycan Respublikası Mülki Məcəlləsinin 385.1-ci maddəsinə əsasən öhdəliyə əsasən bir şəxs (borclu) başqa şəxsin (kreditorun) xeyrinə müəyyən hərəkəti etməlidir, məsələn, pul ödəməli, əmlak verməli, iş görməli, xidmərlər

göstərməli və i.a. və ya müəyyən hərəkətlərdən çəkinməlidir, kreditorun isə borcludan vəzifəsinin icrasını tələb etmək hüququ vardır.

Lakin, iş materiallarına əlavə edilmiş “Mingəçevir RET” MMC-nin xidməti ərazisində yerləşən büdcə təşkilatları üzrə debitor borclar barədə Məlumatdan görünür ki, 01.04.2009-cu il tarixə büdcə təşkilatlarının enerjidən istifadə ilə əlaqədar 83.177.168,57 manat borcu vardır.

Eyni zamanda iş materiallarından görünür ki, “RET” MMC-yə büdcə təşkilatlarının 01.04.2009-cu il tarixə bütövlükdə 306.496.610,88 manat məbləğində borcu vardır. Belə olan halda, həmin təşkilatlara borc əvəzinə Maliyyə Nazirliyi tərəfindən veksel təqdim edilərsə, “RET” MMC həmin ödənişi qəbul edər və öz növbəsində Dövlət Sosial Müdafiə Fonduna olan borcuna yönəldə bilər.

Öhdəliklərə xitam verilməsinin əsaslarından bəhs edən Azərbaycan Respublikası Mülki Məcəlləsinin 527.1-ci maddəsinə əsasən öhdəliyə icra, depozitə qoyma, qarşılıqlı əvəzləşdirmə, borcu bağışlama, müddətin keçməsi nəticəsində və bu Məcəllədə və ya müqavilədə nəzərdə tutulan digər əsaslar üzrə tamamilə və ya qismən xitam verilir.

Həmin Məcəllənin 551.2.1-ci maddəsinə əsasən kirayə haqqı, icarə haqqı, kapital üçün faizlər və digər vaxtaşırı ödənişlər haqqında tələblər beş il keçdikdən sonra qüvvəsini itirir.

İş materiallarından görünür ki, iddiaçıların silinməsini tələb etdiyi borclar “Gəncəelektrikşəbəkə” və “Əli Bayramlıelektrikşəbəkə” ASC-lər və həmin cəmiyyətlərin “BYGEA” ASC tərəfindən idarəetməyə verdiyi dövrdə əmələ gəlmiş borclardır. (Yəni həmin borc məbləğləri 01 oktyabr 2002-ci ilədək yaranmış olan borcdur)

Cavabdeh apellyasiya şikayətində borcların ödənilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən möhlət verilməsini, bu səbəbdən iddiaçılar “Mingəçevir RET” MMC və “Astara EQ” MMC-nin iddia ərizələrinin baxılmamış saxlanılmasını barədə qərardad qəbul edilməsini xahiş etmişdir.

Bununla bağlı məhkəmə kollegiyası hesab edir ki, apellyasiya şikayətinin qeyd olunan dəlili əsassızdır.

Belə ki, məcburi dövlət sosial sığorta haqqları üzrə yaranmış borcların ödənilməsinə möhlət “Bakı Yüksək Gərginlikli Elektrik Avadanlıqları” ASC-nin təsis etdiyi “BAYVA Qərb-Enerji” və “BAYVA Cənub-Enerji” MMC-lərə verildiyindən, həmin möhlətin verilməsi iddiaçılara münasibətdə tətbiq oluna bilməz. Çünki hazırki iş üzrə iddiaçılar “BAYVA Qərb-Enerji” və “BAYVA Cənub-Enerji” MMC-lərin hüquqi varisləri deyil və eyni zamanda borc məbləği onlara hüquqi varislik əsasında keçməmiş və iddiaçılarla DSMF arasında borcların ödənilməsinə möhlət verilməsi ilə bağlı razılaşma olmamışdır.

Belə olan halda məhkəmə kollegiyası qeyd edilən hallara istinad etməklə belə nəticəyə gəlir ki, birinci instansiya məhkəməsi maddi və prosessual hüquq normaları düzgün tətbiq etməklə, mübahisəni mahiyyəti üzrə düzgün həll edərək qanuni və əsaslı qətnamə qəbul edilmişdir.

Azərbaycan Respublikası MPM-nin 14.2-ci maddəsinə əsasən məhkəmə yalnız tərəflərin təqdim etdikləri sübutları araşdırmalı və onlardan istifadə etməlidir.

Həmin Məcəllənin 77.1-ci maddəsinə müvafiq olaraq hər bir tərəf öz tələblərinin və etirazlarının əsası kimi istinad etdiyi halları sübut etməlidir.

Qeyd olunan Məcəllənin 217.4-cü maddəsinə əsasən məhkəmə öz qətnaməsini yalnız məhkəmə iclasında tədqiq olunmuş sübutlarla əsaslandırır.

Beləliklə, məhkəmə kollegiyası hesab edir ki, cavabdehin apellyasiya şikayətində göstərdiyi dəlillər öz təsdiqini tapmadığından əsassız hesab olunmalıdırlar.

Yuxarıda qeyd olunanları nəzərə alaraq məhkəmə kollegiyası hesab edir ki, 1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırki iş üzrə qəbul etdiyi 2-(81)-1319/2009 saylı 16 dekabr 2009-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılmalı, apellyasiya şikayəti təmin olunmamalıdır.

Şərh olunanlara əsasən Azərbaycan Respublikası MPM-nin 382, 384.0.1., 392 və 405-ci maddələrini rəhbər tutaraq, məhkəmə

q ə t e t d i:

1 saylı Bakı yerli İqtisad Məhkəməsinin hazırkı iş üzrə qəbul etdiyi 2-(81)-1319/2009 saylı 16 dekabr 2009-cu il tarixli qətnaməsi dəyişdirilmədən saxlanılsın.

Cavabdeh Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun İri Sığortaedənlərlə iş üzrə Departamentinin apellyasiya şikayəti təmin olunmasın.

Qətnamədən işdə iştirak edən şəxslərə rəsmi qaydada verildiyi gündən 2 ay müddətində Bakı Apellyasiya Məhkəməsi vasitəsilə Azərbaycan Respublikası Ali Məhkəməsinin İqtisadi mübahisələrə dair işlər üzrə məhkəmə kollegiyasına kassasiya şikayəti verilə bilər.